# GÖYƏRÇİN

İSSN-0207-4710
2013-cü il

5





Hekayə



Nağıl



Şeir

Nağıl vaxtı

# TACİR VƏ TUTUQUŞU

*(Əfqan nağılı)*

Bir tacir Hindistana getməyə hazırlaşırdı. O, qohum-əqrəbasını, dost-tanışını yanına çağırıb soruşdu ki, sizə Hindistandan nə gətirim?

Hərə bir şey sifariş verdi. Tacir qəfəsdə saxladığı tutuquşudan soruşdu ki, sənə öz vətənindən nə gətirim?

Tutuquşu dedi:

-Zəhmət olmasa, tutuquşular yaşayan meşəyə gedib mənim salamımı onlara çatdır. Sonra de ki, bu, necə dostluqdu, mən qəfəsdə yaşayıram, onlar isə azad şəkildə istədikləri yerə uçurlar. Tutuquşular nə cavab versələr, onu mənə çatdırarsan.

Tacir həvəslə tutuquşunun xahişini yerinə yetirməyə razılaşdı. Sonra o, Hindistana getdi. Axtarıb tutuquşular yaşayan meşəni tapdı. Onlara üz tutub dedi:

-Ey, tutuquşular! Sizin qardaşlarınızdan biri mənim evimdə qəfəsdə yaşayır. O, sizin hamınıza salam göndərdi. Sonra dedi ki, mən qəfəsdə yaşayıram, onlar azadlıqda.

Tacirin sözlərini eşidən bir tutuquşu titrədi, çırpındı, yıxılıb öldü. Tacir çox peşman oldu. Düşündü ki, ayrılığa dözə bilməyən bu tutuquşu yəqin ki, qəfəsdə yaşayan tutuquşunun qohumu, dostu, sevgilisi imiş...

Tacir işlərini görüb vətəninə qayıtdı. Evdə onu çox sevinclə qarşıladılar. Tacir aldığı hədiyyələri doğmalarına, əzizlərinə payladı. Sonra tutuquşunun yanına getdi.

Quş ondan soruşdu:

-Sən mənim arzularımı yerinə yetirdinmi?

Tacir kədərlə dedi:

-Yetirməyinə yetirdim, ancaq peşmanam. Yaxşı olar ki, nə baş verdiyini heç sənə danışmayım.

Tutuquşu özünü incimiş kimi göstərdi. Tacir çarəsiz qalıb olanları danışdı. Dedi ki, sənin sözlərini qohumlarına deməyə peşman oldum. Çünki onlardan biri sənin dediklərini eşidən kimi yıxılıb öldü.

Qəfəsdəki tutuquşu bunu eşidən kimi o da çırpındı, yıxılıb öldü. Tacir çox kədərləndi. Qəfəsin qapısını açıb ölmüş quşu ordan çıxarmaq istəyəndə tutuquşu pırıldayıb ordan uçdu. Bunu görən tacir çox təəccübləndi və soruşdu:

-Ey, tutuquşu! Söylə, görüm, nə üçün belə elədin?

-Özünü ölülüyə vuran qardaşım öz hərəkəti ilə qəfəsdən necə çıxmağın yolunu mənə başa salmaq istəyibmiş. Mən də onun kimi hərəkət eləyib canımı qəfəsdən qurtardım. Məni bağışla, haqqını halal elə. Azadlığa çıxdığım üçün özümü çox xoşbəxt sayıram.

Tutuquşu bu sözləri deyib uçdu. Qəlbində quşun hərəkətlərinə haqq verən tacir isə sevimli quşunun ardınca baxa-baxa qaldı.

*Tərcümə edib işləyəni R.Y.Əliyev*

Rəssam
Aytən

